EVEREST
audit & consulting

www.everestaudit.az
+994 (50) 225 55 02
Lotos Plaza (Əhməd Rəcəbli 23L)

20 Aprel 2026 – cı il

№ 17/26

**"Həsən Holding" MMC-nin**
**direktoru Seyidov Azər Maşallah oğluna**

Audit aparılmasının şərtləri barədə məktub – öhdəlik

**Hörmətli Azər müəllim,**

Siz, "Həsən Holding" MMC-nin 31 dekabr 2025 – ci il tarixdə bitən il üzrə maliyyə hesabatlarının, o cümlədən, maliyyə vəziyyəti, mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın auditini keçirməyi xahiş etmişsiniz. Hazırki məktub–öhdəlik əsasında auditin keçirilməsinə razılıq verdiyinizi və həmin tapşırığı qəbul etdiyinizi bilirik. Audit maliyyə hesabatlarına dair rəyin bildirilməsi məqsədi ilə aparılacaqdır.

Audit prosesi Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılacaqdır. Standartlar, audit prosesinin maliyyə hesabatlarında əhəmiyyətli səhvlərin olub-olmadığını müəyyən etmək üçün əsaslı əminlik əldə etmək məqsədi ilə planlaşdırılmanı və icrasını tələb edir. Bizim audit işimiz test əsasında yoxlamadan, hesabatları və ilkin maliyyə hesabatlarını təmin edən subutların əldə edilməsindən ibarət olacaq. Eyni zamanda, auditə rəhbərlik tərəfindən istifadə edilən uçot qaydalarının, eləcə də, maliyyə hesabatlarının ümumi qiymətləndirilməsi daxildir.

Müəyyən mühasibat və daxili nəzarət sisteminin məhdudiyyətləri ilə birlikdə, auditin test mahiyyəti və bir sıra daxili məhdudiyyətlərin olması səbəbi ilə, əhəmiyyətli səhvlərin aşkar edilməməsi üzrə qaçılmaz risklər mövcuddur.

Maliyyə hesabatları üzrə hesabatımıza əlavə olaraq, mühasibat uçotunda və daxili nəzarət sistemlərində diqqətimizi cəlb edən əhəmiyyətli nöqsanlar barədə Sizə məktubla məlumat verəcəyik.

Nəzərinizə çatdırırıq ki, tələblərə cavab verən maliyyə hesabatlarının hazırlanma cavabdehliyi rəhbərliyin üzərinə düşür. Bura müvafiq mühasibat qeydlərinin sazlanması, uçot siyasətinin seçilməsi və tətbiqi və eləcədə, müəssisənin aktivlərinin qorunması daxildir. Audit prosesinin bir hissəsi olaraq, biz rəhbərlikdən auditlə bağlı edilmiş təqdimata dair yazılı razılıq tələb edəcəyik.

Sizin işçi heyətinizlə əməkdaşlıq etməyə hazırıq və onların auditlə bağlı lazım olan bütün hesabatları, sənədləşmələri və sair məlumatları təqdim edəcəklərinə inanırıq.

EVEREST
audit & consulting

www.everestaudit.az
+994 (50) 225 55 02
Lotos Plaza (Əhməd Rəcəbli 23L)

Hazırki məktub ləğv edilməzsə, düzəlişlər aparılmazsa və ya başqası ilə əvəz edilməzsə gələcək dövrlər üçün də etibarlı sayılır.

Maliyyə hesabatlarının auditi işinin təşkilinə Sizin razılığınızın olduğunu təsdiq etmək üçün bu məktub-öhdəliyi imzalamağınızı və bir nüxsəsini geri qaytarmağınızı xahiş edirik.

**"EVEREST AUDİT" MMC – nin**

**Direktor-auditoru ________________ Şixəfiyev Eşqin Əziz oğlu**

**"Həsən Holding" MMC-nin**

**Direktoru ________________ Seyidov Azər Maşallah oğlu**

**(etibarnamə əsasında Səfiyev Vüqar Vəli oğlu)**